# Azərbaycan Respublikasının

# Maliyyə Monitorinqi Xidmətinin

# İllik Fəaliyyət Hesabatı

# 2024

**Mündəricat**

Akronimlər.....................................2

Ön söz..........................3

ƏL/TMM üzrə siyasətin həyata keçirilməsi üzrə fəaliyyət...............4
Məlumatların emalı və təhlili üzrə fəaliyyətlər...............6
Qanunvericiliyin təkmilləşdirilməsi üzrə fəaliyyətlər.......................16
Ölkədaxili əməkdaşlıq........................18

Beynəlxalq əməkdaşlıq.....................19

İnstitusional quruculuq və təşkilati məsələlər..............
İnstitusional quruculuq və təşkilati məsələlər..........16

## Anlayışlar

| | |
|---|---|
| **Eqmont Qrupu** | Dünyanın maliyyə monitorinqi orqanlarının vahid beynəlxalq təşkilatı |
| **ƏL** | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması |
| **ƏL/TMM** | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə |
| **FATF** | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupu |
| **HMO** | Hüquq mühafizə orqanları |
| **Xidmət** | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti |
| **İT** | İnformasiya texnologiyaları |
| **MMO** | Maliyyə monitorinqi orqanları |
| **MONEYVAL** | Avropa Şurasının Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi |
| **MRQ** | Milli risk qiymətləndirilməsi |
| **Koordinasiya Şurası** | Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli qərarı ilə yaradılmış Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurası |
| **ŞƏMS** | Şübhəli Əməliyyatların Monitorinqi Sistemi |
| **TM** | Terrorçuluğun maliyyələşdirilməsi |

# Ön söz

2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idarəçiliyi ilə Azərbaycan mühüm uğurlar əldə etmişdir. Ərazi bütövlüyünün tam bərpası ilə Qarabağ bölgəsində başlamış yenidənqurma işlərinin sürətlə davam etməsi, bütünlükdə ölkədə sosial-iqtisadi inkişafla xarakterizə olunan 2024-cü ildə iqtisadiyyatın dayanıqlılığı təmin olunmuşdur. Dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə keçirilməsi ilə ölkəmizin beynəlxalq səviyyədə etibarlı tərəfdaş kimi mövqeyi daha da gücləndirilmişdir.

2024-cü il bir çox istiqamətlərdə yeniliklər ili kimi fərqlənmişdir və dövlətin davamlı idarəetmə tədbirləri bu müsbət dəyişikliklərin əsasını təşkil etmişdir. Maliyyə Monitorinqi Xidməti (Xidmət) də müasir çağırışların doğurduğu çətinliklərin öhdəsindən uğurla gəlmiş, həyata keçirilən tədbirlərin milli iqtisadiyyata müsbət təsiri 2024-cü ildə də davam etmişdir. MONEYVAL-ın 5-ci raund qiymətləndirməsi ilə əlaqədar həyata keçirilmiş kompleks tədbirlərlə yadda qalmış 2023-cü ilin ardınca 2024-cü ildə meyillərin əhəmiyyətli dərəcədə yaxşılaşması müşahidə edilmişdir.

Belə ki, əsas məqsədi ölkənin maliyyə sisteminin cinayətkarlıqdan, xüsusilə də cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərindən qorumaq olan Xidmət bu sahədə risklərin qiymətləndirilməsi, müvafiq qanunvericiliyin tətbiqi və maliyyə institutlarının nəzarəti yolu ilə hesabat ili ərzində dövlətin maliyyə sistemində şəffaflıq və təhlükəsizliyin təmin olunmasına çalışmışdır. Xidmət, həmçinin ölkədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Hesabat dövründə hüquq mühafizə orqanlarına təqdim olunan məlumatlar əsasında cinayət işləri açılmış, xarici maliyyə kəşfiyyatı orqanları ilə məlumat mübadiləsi üzrə daha çox ölkə ilə əlaqələr gücləndirilmişdir. Bunlarla yanaşı, banklarda keçirilmiş təlimlər və təqdim edilmiş geriyə məlumatlandırma nəticəsində şübhəli əməliyyatların daha dəqiq təhlili təmin edilmişdir. Bu nailiyyətlər hesabat ili ərzində Xidmətin fəaliyyətinin səmərəliyini artırmış və qarşıya qoyulmuş məqsədlərə nail olunmasında mühüm rol oynamışdır.

2024-cü il ərzində Avropa Şurasının MONEYVAL Komitəsinin 5-ci raund qiymətləndirməsi sonrası həyata keçirilmiş kompleks tədbirlər Koordinasiya Şurasının qısa müddətli planına uyğun həyata keçirilmişdir.

Maliyyə cinayətlərinin və onların həyata keçirilmə metodlarının aşkarlanması və qarşısının alınması üçün dövlət qurumları və müvafiq tərəfdaşların sıx əməkdaşlığı hesabat ili dövründə də uğurla davam etdirilmişdir. ƏL/TMM sahəsində birgə səylərin genişləndirilməsi və optimallaşdırılması məqsədilə imkanlar yaradılmışdır. Belə ki, hesabat dövründə öhdəlik daşıyan şəxslər, nəzarət orqanları, məhkəmə və hüquq mühafizə orqanları, eləcə də müxtəlif dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm işlər görülmüş, ictimai əlaqələr genişləndirilmişdir. Xüsusiləşdirilmiş əməkdaşlıq çərçivəsində nəzarət və hüquq mühafizə orqanlarının əməkdaşlarından ibarət işçi qruplarda mütəmadi görüşlər təşkil edilmiş, həm strateji, həm də

əməliyyat səviyyəsində qurumlararası əməkdaşlıq təmin olunmuşdur. Milli fəaliyyət və tədbirlər planları üzrə tədbirlərin birgə icrası, strategiyaların hazırlanması, vahid statistik bazanın formalaşdırılması, ekspert və metodoloji dəstəyin göstərilməsi, analitik təhlillərin aparılması, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətləri üzrə əlaqəli fəaliyyət həyata keçirilmişdir.

Hesabat ili Xidmətin təşkil etdiyi mötəbər beynəlxalq tədbirlər baxımından əlamətdar olmuşdur. Bu dövrdə Xidmətin Eqmont Qrupu, İnterpol və BMT-nin Narkotik və Cinayətkarlıqla Mübarizə İdarəsi ilə birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində iki panel müzakirə keçirilmişdir. Bu müzakirələrdə "Maliyyə kəşfiyyatının antropogen iqlim dəyişmələri ilə mübarizədə qlobal səylərə töhfəsi" və "Ətraf mühit cinayətləri ilə mübarizədə maliyyə monitorinqi orqanlarının və onların hüquq-mühafizə sahəsində tərəfdaşlarının rolu" mövzuları ətrafında fikir mübadiləsi aparılmışdır.

Bundan əlavə, Şuşa şəhərində Xidmətin təşəbbüsü və təşkilatçılığı ilə "Türk Dövlətlərinin Maliyyə Monitorinqi Orqanlarının Beynəlxalq Forumu" keçirilmişdir. Forum çərçivəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin maliyyə monitorinqi orqanları tərəfindən "Şuşa Təşəbbüsü" sənədi qəbul olunmuşdur.

Bu tədbirlər Xidmətin beynəlxalq əməkdaşlıq və qlobal məsələlərin həllinə töhfə vermək istiqamətində aktiv rolunu bir daha nümayiş etdirmişdir.

2024-cü ildə institusional quruculuq istiqamətində fəaliyyət davam etdirilmiş, kadr potensialının gücləndirilməsi, bilik səviyyəsinin artırılması  təmin olunmuş, iş axınlarının və işgüzar yazışmanın avtomatlaşdırılması üzrə işlər yeni mərhələyə keçirilmiş, məlumatların qəbulu, emalı və təhlil proseslərini, eləcə də işlərin hüquq mühafizə orqanlarına ötürülməsini avtomatlaşdıran yeni proqram təminatının qurulmasına başlanılmışdır.

Bu gün möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin uğurla davam etdirilməsi nəticəsində müşahidə olunan iqtisadi artım maliyyə şəffaflığının gücləndirilməsi zərurətini yaradır. Bu da Xidməti və bu hallarla mübarizə aparan digər dövlət qurumlarını daha tədbirli olmağa sövq edir. İnanıram ki, qarşıdakı illərdə Maliyyə Monitorinqi Xidməti öz fəaliyyətini yenilənən beynəlxalq standartlara uyğunlaşdırmaqla ölkəmizdə və dünyada cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin effektiv icrasına, cinayətkarlığın qarşısının alınmasına, Respublikamızda şəffaf maliyyə sisteminin qurulmasına öz töhfəsini verməyə davam edəcəkdir.

**İdarə Heyətinin sədri Zaur Fətizadə**

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən 2024-cü il ərzində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə (bundan sonra – ƏL/TMM) vahid tənzimləmə həyata keçirilmiş, qanunvericiliyin beynəlxalq tələblərə uyğunlaşdırılması təmin edilmiş, məlumatların qəbulu, təhlili və ötürülməsi icra edilmiş, müvafiq yerli və beynəlxalq qurumların fəaliyyəti əlaqələndirilmişdir.

## ƏL/TMM üzrə siyasətin həyata keçirilməsinə dair ümumi məsələlər üzrə

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə mübarizə potensialının gücləndirilməsi, Maliyyə Monitorinqi Xidmətinin müasir tələblərə uyğun, maliyyə sisteminin təhlükəsizliyinin təmin olunmasına xidmət edən orqana çevrilməsi, maliyyə kəşfiyyatı tədbirlərinin avtomatlaşdırılması məqsədilə 2023-cü ilin sonlarında 17 moduldan ibarət, müasir texnologiyalara əsaslanan yeni proqram təminatı **“ŞƏMS - Şübhəli Əməliyyatların Monitorinqi Sistemi”**nin yaradılmasına start verilmişdir.

ŞƏMS yaradılarkən bu sahədə uçot və hesabatlılığın qurulması, dövlət qurumları ilə onlayn inteqrasiya, yeni innovativ tətbiqlərdən və vizuallaşdırmadan istifadə, aktual məlumat bazasının formalaşdırılması, risklərin idarə olunması əsas hədəflər kimi müəyyən edilmişdir. ŞƏMS maliyyə kəşfiyyatı sahəsində ixtisaslaşmış əməkdaşların və informasiya texnologiyaları mütəxəsislərinin səyləri nəticəsində 2025-ci ilin yanvar ayında istifadəyə verilmişdir.

Artıq öhdəlik daşıyan şəxslər rahat elektron formatda qeydiyyatdan keçir, funksionallığa uyğun yaradılmış Şəxsi Kabinetlər vasitəsilə hesabatları təqdim edir və sistemdə olan məlumatlardan istifadə edirlər. Eyni zamanda, nəzarət orqanları üçün Şəxsi Kabinetlər hazırlanmış, öhdəlik daşıyan şəxslərin, onlar tərəfindən təqdim edilmiş hesabatların reyestrindən istifadə etməklə effektiv nəzarət mexanizminin qurulması imkanı verilmişdir.

ŞƏMS Xidmətin funksiyalarının avtomatlaşdırılmasına imkan vermiş, şübhəli şəxslərin ətraflı araşdırılması, onlar barədə mümkün qədər çox məlumatın qısa müddət ərzində toplanması məqsədilə 15 qurumdan məlumatın onlayn rejimdə alınması reallaşdırılmışdır.

Təhlil işlərinin səmərəli, qısa müddət ərzində aparılmaqla düzgün nəticələrin əldə olunması məqsədilə yaradılmış hesabatlılıq sistemində standart, qrafik, diaqram formata əsaslanan biznes analitikası, profillərin, onların qarşılıqlı əlaqələrinin vizuallaşdırması

formatlarından istifadə olunur. Qeyd olunan proseslərdə süni intellektin tətbiq olunmasına başlanılmışdır.

2024-cü il ərzində Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq edimiş **"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nında** nəzərdə tutulmuş tədbirlərin icrası davam etmişdir.

Hesabat dövrü ərzində Xidmət tərəfindən müvafiq sahə üzrə nəzarət və hüquq mühafizə orqanlarının əməkdaşları, hakimlər və öhdəlik daşıyan şəxslər üçün 14 təlim keçirilmiş, strateji təhlil məhsulları və qanunvericilik aktlarının layihələri hazırlanmış, kommersiya hüquqi şəxslərdən ƏL/TMM məqsədləri üçün sui-istifadə riskləri qiymətləndirilmiş, qeyri-hökumət və dini təşkilatların TM üzrə risk qiymətləndirilməsi həyata keçirilmiş, virtual aktivlər üzrə araşdırılmalar aparılmış, hədəfli maliyyə sanksiyalarının tətbiqi ilə bağlı tədbirlər görülmüşdür.

Metodiki dəstək çərçivəsində Xidmət tərəfindən "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətinin müstəqil təqibi üzrə müsbət təcrübəyə dair Avropa İnsan Hüquqları Məhkəməsinin və xarici ölkə məhkəmələrinin qərarlarından nümunələr toplusu", "Cinayət yolu ilə əldə edilmiş vəsaitin leqallaşdırılması cinayətinin tövsifi və sübut edilməsi məsələlərinə dair metodoloji vəsait", "Notariuslar tərəfindən şübhəli hesabatların tərtib edilməsi üzrə metodiki Tövsiyə", "Qeyri-kommersiya təşkilatlarına münasibətdə risk əsasli nəzarət tədbirlərinə dair metodiki tövsiyə" kimi sənədlər hazırlanaraq aidiyyəti qurumlara göndərilmişdir.

Ölkədə fəaliyyət göstərən dini qurumların maliyyə hesabatlılığının təkmilləşdirilməsi məqsədilə DQİDK tərəfindən tətbiq edilən maliyyə hesabatı forması təhlil edilərək yeni forma nəzarət orqanına təqdim edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli qərarı ilə yaradılmış **Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurası** öz fəaliyyətini 2024-cü ildə də davam etmişdir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli

Fəaliyyət Planı"nın 2023-cü il üzrə icrası vəziyyətinə dair qiymətləndirmə aparılaraq, nəticələri 2024-cü il 28 iyun tarixində Koordinasiya Şurasının iclasında təqdim edilmişdir.

Həmçinin, Xidmət tərəfindən Avropa Şurası MONEYVAL Komitəsinə təqdim ediləcək Tərəqqi Hesabatına hazırlıq vəziyyətinə dair qiymətləndirmə aparılmışdır.

Koordinasiya Şurasının 2023-cü il 28 dekabr tarixli 02/23 Qərarı ilə təsdiq edilmiş "Avropa Şurası MONEYVAL Komitəsi tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikasının qarşılıqlı qiymətləndirmə hesabatında müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair qısamüddətli Tədbirlər Planı"nın icrası vəziyyətinin illik qiymətləndirilməsi həyata keçirilmişdir.

Hesabat dövründə aparılan risk qiymətləndirilmələri çərçivəsində kommersiya hüquqi şəxslərinin ƏL/TM risklərinin qiymətləndirilməsi keçirilmiş, riskli vergi ödəyiciləri, dövlət satınalma qalibləri, etibarından sui-istifadə edilərək adına hüquqi şəxs təsis edilmiş şəxslər ilə bağlı təhlil aparılmışdır. Risk qiymətləndirilməsinin nəticələri barədə hesabat tərtib edilmiş, müəyyən edilmiş əsas təhdidlər və zəifliklərin aradan qaldırılması məqsədilə tədbirlər planı hazırlanmışdır. Hesabat və tədbirlər planı Koordinasiya Şurasının iclasında təsdiq edilmişdir.

Terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi risklərinin qiymətləndirilməsi üçün xarici ölkələrin qarşılıqlı qiymətləndirmə və milli risk qiymətləndirməsi hesabatları, Xarici İşlər Nazirliyinin hesabatları və digər beynəlxalq sənədlər təhlil edilmiş, aidiyyati qurumların rəyləri nəzərə alınmaqla hazırlanmış hesabat Koordinasiya Şurasına təqdim edilmişdir.

"Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilən informasiya sistemlərindən (ehtiyatlarından) əldə olunan məlumatların dairəsinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-ci il 25 iyul tarixli 360 nömrəli Qərarının icrası ilə bağlı Xidmət tərəfindən 15 dövlət qurumunun məlumat bazaları ilə inteqrasiya işləri təmin edilmişdir.

## Məlumatların emalı və təhlilinə dair

Xidmətin “ŞƏMS” proqram təminatında rahat elektron qeydiyyat sisteminin yaradılması nəticəsində 2024-cü ilin sonuna qeydiyyatdan keçmiş öhdəlik daşıyan şəxslərin sayı 1593 vahid təşkil etmişdir ki, bu da 2023-cü ilin sonuna olan göstəricidən (862 vahid) 731 vahid və ya 1,8 dəfə çoxdur.

*Cədvəl 1*

| Qeydiyyatdan keçmiş ÖDŞ-lərin fəaliyyət növləri | Say |
|---|---|
| Mühasibat və vergi məsləhəti xidməti göstərən şəxslər | 754 |
| Hüquq Xidməti göstərən şəxslər | 268 |
| Audit xidməti göstərən şəxslər | 219 |
| Rieltorlar | 104 |
| Vəkil fəaliyyəti ilə məşğul olan şəxslər | 84 |
| BOKT | 58 |
| Bank | 22 |
| Maliyyə lizinqi xidmətləri göstərən şəxslər | 17 |
| Ödəniş təşkilatları | 14 |
| İnvestisiya şirkətləri | 12 |
| Elektron pul təşkilatları | 10 |
| Lombardlar | 7 |
| Həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan siğorta təşkilatları | 5 |
| Kredit ittifaqları | 5 |
| Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər | 3 |
| Virtual aktiv xidməti təminatçıları | 3 |
| Həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan siğorta vasitəçiləri | 2 |
| İnvestisiya fondu | 2 |
| Həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan təkrarsiğorta təşkilatları | 1 |
| Mərkəzi Depozitar | 1 |
| Notarius | 1 |
| Poçt rabitəsinin milli operatoru | 1 |
| CƏMİ | 1593 |

2024-cü ildə öhdəlik daşıyan şəxslər tərəfindən Xidmətə təqdim edilmiş **şübhəli hesabatların sayı** 779 vahid təşkil etmişdir ki, bu da 2023-cü ilin müvafiq göstəricisindən (1 501) 722 vahid və ya 48 faiz azdır. Qeyd olunan hesabatlarda əməliyyat məbləği isə 3 milyard 371,3 milyon manat təşkil etmişdir ki, bu da 2023-cü ilin müvafiq göstəricisindən (8 milyard 385,5 milyon manat) 5 milyard 14,2 milyon manat və ya 2,5 dəfə azdır.

2024-cü ildə 29 maliyyə institutu tərəfindən **məbləğ limitinə əsasən göndərilən əməliyyatlar** 103 milyard 487,9 milyon manat təşkil etmişdir ki, bu da 2023-cü ilin müvafiq

göstəricisindən (77 milyard 281,7 milyon manat) 26 milyard 206,2 milyon manat və ya 33,9 faiz çoxdur. Eyni zamanda 2023-cü il (560 114 əməliyyat) ilə müqayisədə hesabat dövründə təqdim olunan əməliyyatların sayında (662 592 əməliyyat) 102 478 vahid və ya 18,2 faiz artım olmuşdur.

Həmçinin, **məbləğ limitindən asılı olmayaraq göndərilən əməliyyatların** sayı 60 356 vahid və ya 14,9 faiz artaraq 465 550, əməliyyatların məbləği 2 milyard 477,4 milyon manat və ya 98,5 faiz artaraq 4 milyard 991,1 milyon manat olmuşdur.

**Yüksək riskli zonalarla əlaqəli həyata keçirilən əməliyyatların** sayı isə 602 455 vahid və ya 2,9 dəfə artaraq 917 850, əməliyyatların məbləği 338,6 milyon manat və ya 1,8 dəfə artaraq 762,7 milyon manat olmuşdur. Artım, yüksək riskli zona hesab edilən ölkələr siyahısının genişlənməsi nəticəsində baş vermişdir.

*Cədvəl 2, mln manatla*

| İl | Şübhəli hesabatların | | Məbləğ limitinə əsasən göndərilən əməliyyatların CTR | | Məbləğ limitindən asılı olmayaraq göndərilən əməliyyatların | | Yüksək riskli zonalarla əlaqəli həyata keçirilən əməliyyatların BLR | |
|---|---|---|---|---|---|---|---|---|
| | Sayı | Məbləği | Sayı | Məbləği | Sayı | Məbləği | Sayı | Məbləği |
| 2023 | 1 501 | 8 385.5 | 560 114 | 77 281.7 | 405 194 | 2 513.7 | 315 395 | 424.1 |
| 2024 | 779 | 3 371.3 | 662 592 | 103 487.9 | 465 550 | 4 991.1 | 917 850 | 762.7 |
| Fərq | -722 | -5 014.2 | 102 478 | 26 206,2 | 60 356 | 2 477.4 | 602 455 | 338.6 |

2024-cü il ərzində şübhəli hesabatların sayında müşahidə olunan azalmanın səbəbi öncəki ildə “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə əlaqədar nəzərdə tutulmuş aylıq nağdlaşdırma limitini pozan vergi ödəyiciləri və vergi qanunvericiliyinin pozulması ilə bağlı hesabatların STR kodu altında qəbulunun dayandırılması, daha öncə STR kodu altında təqdim edilən bəzi əməliyyatlarda şübhəlilik əsaslarının düzgün müəyyən edilməsi məqsədilə banklara keçirilən təlimlər və təqdim edilən geriyəməlumatlandırma olmuşdur.

Hesabat ili ərzində banklar tərəfindən göndərilmiş şübhəli hesabatların sayı 2023-cü ilə nisbətən (1393) 2,1 dəfə azalaraq 658 ədəd olmuşdur. Poçt rabitəsinin milli operatoru üzrə məlumat sayı 2023-cü illə müayisədə 64 vahid azalaraq 4, notariuslar üzrə 67 vahid

artaraq 85, investisiya şirkətləri üzrə isə 11 vahid artaraq 26 olmuşdur. Sığorta təşkilatları tərəfindən 2024-cü il ərzində məlumat təqdim edilməmişdir.

*Cədvəl 3, mln manatla*

| | 2023 | | 2024 | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | **Say** | **Məbləğ** | **Say** | **Məbləğ** | **Say** | **Məbləğ** |
| **Şübhəli hesabat, *o cümlədən*** | **1501** | **8385.5** | **779** | **3 371.3** | **-722** | **-5014.2** |
| **Banklar** | **1393** | **8167.8** | **658** | **3209.7** | **-735** | **-4958.1** |
| **Poçt rabitəsinin milli operatoru** | **68** | 12.4 | **4** | **80.2** | **-64** | **67.8** |
| **Notariuslar** | **18** | **51.2** | **85** | **21.3** | **67** | **-29.9** |
| **İnvestisiya şirkətləri** | **15** | **152.1** | **26** | **51.2** | **11** | **-100.9** |
| **Sığorta şirkətləri** | **7** | **2** | **0** | **0** | **-7** | **-2** |
| **Digər** | 0 | 0 | 6 | 9 | **6** | **9** |

Hesabat ili ərzində öhdəlik daşıyan şəxslər tərəfindən Xidmətə təqdim olunan şübhəli əməliyyatlara dair hesabatlarda ehtimal olunan predikativ cinayətlərə və ya ƏL/TMM üzrə sxemlərə dair təsnifatı aşağıdakı qrafikdə təsvir edilmişdir.

**Ehtimal olunan predikativ cinayətlərin və ya ƏL/TM sxeminə dair məlumatların sayı**




Müqayisə üçün aşağıda 2023-cü il üzrə məlumat təqdim edilir.




2023-cü ilə nisbətən ötən il ərzində Xidmətə təqdim edilən **xarici siyasi nüfuzlu fiziki şəxslər**in mədaxil əməliyyatlarının sayı 5 479 vahid və ya 57,5 faiz artaraq 15 002, məbləği 877,3 milyon manat və ya 2,9 dəfə artaraq 1 milyard 337,3 milyon manat olmuşdur. Şəxslərin nağd məxaric əməliyyatlarının sayı isə 16 386 vahid və ya 25,5 faiz artaraq 80 627, məbləği isə 925,7 milyon manat və ya 3,7 dəfə artaraq 1 milyard 261,1 milyon manat təşkil etmişdir.

*Cədvəl 4, mln manatla*

| Əməliyyatlar | 2023 | 2024 | Fərq |
|---|---|---|---|

| | Say | Məbləğ | Say | Məbləğ | Say | Məbləğ |
|---|---|---|---|---|---|---|
| Mədaxil əməliyyatları | 9 523 | 460.0 | 15 002 | 1 337.3 | 57.5 % | 190.7 % |
| Məxaric əməliyyatları | 64 241 | 335.4 | 80 627 | 1 261.1 | 25.5 % | 275.9 % |

2024-cü il ərzində xarici siyasi nüfuzlu və onlarla əlaqəli şəxslərə dair Xidmətə daxil olan 14 658 sayda hesabatın araşdırılması zamanı 95 629 sayda mədaxil və məxaric əməliyyatları üzrə 2 milyard 598,4 milyon manat məbləğində əməliyyat aparıldığı müəyyən edilmişdir ki, bu da 2023-cü ilin müvafiq dövrlərinin göstəricisindən (795,4 milyon manat) 1 803 milyon  manat və ya 3,3 dəfə çoxdur.

Qeyd etmək istərdik ki, hesabat dövrü ərzində aylıq əməliyyat məbləği 30 000 AZN-dən yuxarı olan əməliyyatlar aparmış 77 şəxsin (1 618) əməliyyatla 743 milyon manat) əsasən Rusiya vətəndaşları (37 nəfər[1] və onlarla bağlı 11 nəfər Azərbaycan vətəndaşı) olduğu müəyyən edilmişdir.

Hesabat dövrü ərzində həmin şəxslər tərəfindən 385 sayda 301,6 milyon manat məbləğində mədaxil, 1 233 sayda 441,4 milyon manat məbləğində məxaric əməliyyatı aparılmışdır. Mədaxil əməliyyatlarının 82,6 faizi (294 əməliyyatla 249 milyon manat) Azərbaycan Respublikası daxilində, 17,4 faizi isə (91 əməliyyatla 52,6 milyon manat) xaricdən Respublikamıza edilmiş köçürmələr olmuşdur. Məxaric əməliyyatlarının 41,8 faizi (1 006 əməliyyatla 184,6 milyon manat) Azərbaycan Respublikası daxilində, 58,2 faizi isə (227 əməliyyatla 256,8 milyon manat) Respublikamızdan xaricə edilmiş köçürmələr olmuşdur.

Hesabat dövründə beynəlxalq məlumat mübadiləsi çərçivəsində Xidmətə 16 ölkənin xarici maliyyə monitorinqi orqanı tərəfindən **27 sorğu**, 12 ölkədən spontan qaydada **21 məlumat** daxil olmuş, Xidmət tərəfindən isə 51 ölkəyə **84 sorğu**, 5 ölkəyə isə spontan qaydada 7 **məlumat** göndərilmişdir.

*Cədvəl 5*

| | 2023-cü il üzrə xarici MMO-larla məlumat mübadiləsi | | 2024-cü il üzrə xarici MMO-larla məlumat mübadiləsi | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | say | ölkə sayı | say | ölkə sayı | say | ölkə sayı |
| Göndərilən | 126 | 64 | 91 | 51 | -35 | -13 |

[1] **Rusiya vətəndaşlarından 3-ü həmçinin Azərbaycan Respublikasının vətəndaşlığına malikdir.**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Daxil olan** | **57** | **25** | **48** | **23** | **-9** | **-2** |

2024-cü ildə göndərilən məlumatların 60,0 faizi Türkiyə, Gürcüstan, Birləşmiş Krallıq, BƏƏ, ABŞ, Çin, Almaniya, Litva, Polşa, Rusiya və İspaniyanın payına, 40,0 faizi isə 40 fərqli ölkənin payına düşmüşdür.

**Xarici MMO göndərilən sorğuların ölkələr üzrə bölgüsü**



Ümumilikdə, 2024-cü il ərzində Xidmətə 23 ölkənin maliyyə kəşfiyyatı orqanından 48 məlumat daxil olmuşdur ki, bu da 2023-ci ilin müvafiq göstəricisindən 9 vahid və ya 15,8 faiz daha azdır.

Hesabat ilində daxil olmuş məlumatların 14,6 faizi Rusiyanın, 12,5 faizi BƏƏ-nin, 10,4 faizi Qazaxıstanın, 6,3 faizi müvafiq olaraq Türkmənistan, Ukraniya, Birləşmiş Krallıq və Maltanın, 4,2 faizi Almaniya və İraq, 2,1 faizi isə müvafiq olaraq Argentina, Baham adaları, Belarusiya, Belçika, Bermuda, Çexiya, Estoniya, Rumıniya, Gabon, Suriya, Gürcüstan, Monako, Pakistan  və Tunisin payına düşmüşdür.

**Xarici MMO-dan daxil olmuş sorğuların ölkələr üzrə bölgüsü**



2024-cü ildə Xidmət tərəfindən hüquq mühafizə orqanlarına 73 məlumat ötürülmüşdür ki, bu da 2023-cü il ilə müqayisədə (41 məlumat) 32 vahid və ya 78 faiz çoxdur. Daxil olmuş şübhəli əməliyyatlara dair hesabatların 78 vahidi və yaxud 10 faizi həmin məlumatların tərkibində hüquq mühafizə orqanlarına təqdim edilmişdir ki, bu da 2023-cü ilin müvafiq göstəricisindən (3,7 faiz) 6,3 bənd yüksəkdir. 2024-cü ildə Xidmət tərəfindən hüquq-mühafizə orqanlarına 360 fiziki və hüquqi şəxs barədə məlumat ötürülmüşdür.

*Cədvəl 6*

| İl | *Daxil olan şübhəli hesabatlar* | Göndərilən məlumat | | | *Nisbət (STR)* |
|---|---|---|---|---|---|
| | | Say | Tərkibində şübhəli hesabat sayı | Fiziki və hüquqi şəxslərin sayı | |
| 2024 | 779 | 73 | 78 | 360 | 10.01% |
| 2023 | 1501 | 41 | 56 | 801 | 3.73% |

Qeyd olunanlardan əlavə 2024-cü il ərzində vergi qanunvericiliyinin və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinin pozulması ilə əlaqədar daxil olan və 734 şəxslə bağlı 487 şübhəli hesabat spontan olaraq Dövlət Vergi Xidmətinə təqdim olunmuşdur. 2023-cü ildə 4664 şəxslə əlaqəli 406 şübhəli hesabat eyni

əsasla Dövlət Vergi Xidmətinə təqdim edilmişdir. Qeyd olunan qurumdan təqdim edilən məlumata əsasən göndərilmiş şübhəli hesabatlar əsasında sahibkarlıq fəaliyyəti üzrə gəlirləri müəyyən edilən 209 şəxs üzrə 5,7 milyon manat məbləğində əlavə vergilərin hesablanması təmin edilmişdir.

Xidmət tərəfindən ötürülmüş məlumatların hüquq mühafizə orqanları üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:

*Cədvəl 7*

| Hüquq-mühafizə orqanı | 2023 | | | 2024 | | | Fərq | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Məlumatın sayı | Tərkibində şəxsin sayı | Məlumatın məbləği | Məlumatın sayı | Tərkibində şəxsin sayı | Məlumatın məbləği | Məlumatın sayı | Tərkibində şəxsin sayı | Məlumatın məbləği |
| **DİN** | 21 | 62 | 2.1 | 24 | 115 | 6.7 | *3* | *53* | *4.6* |
| **DVX** | 1 | 3 | 4.7 | 5 | 39 | 22.4 | *4* | *36* | *17.7* |
| **DGK** | 1 | 1 | 0.6 | 2 | 8 | 4.4 | *1* | *7* | *3.8* |
| **Baş Prokurorluq** | 9 | 702 | 86.3 | 30 | 164 | 77.8 | *21* | *-538* | *-8.5* |
| **DTX** | 9 | 33 | 2.9 | 12 | 34 | 0.3 | *3* | *1* | *-2.6* |
| **Ümumi** | **41** | **801** | **96.6** | **73** | **360** | **111.6** | *32* | *-441* | *15.0* |

2023-cü illə müqayisədə 2024-cü ildə **hüquq mühafizə orqanlarından daxil olan sorğular**ın sayı 56 vahid və ya 68,3 faiz artaraq 138 məlumat təşkil etmişdir. 2023-cü ilə nisbətən 2024-cü ildə daxil olan sorğuların sayı Baş Prokurorluq, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti üzrə daha çox artmışdır.

*Cədvəl 8*

| Hüquq-mühafizə orqanı | 2023 | | 2024 | | Fərq |
|---|---|---|---|---|---|
| | Say | X/ç | Say | X/ç | |
| **Baş Prokurorluq** | 24 | 29.3 | 41 | *29.7* | *17* |
| **DTX** | 20 | 24.4 | 53 | *38.4* | *33* |
| **DGK** | 10 | 12.2 | 18 | *13.0* | *8* |
| **DİN** | 19 | 23.2 | 21 | *15.2* | *2* |
| **DVX** | 9 | 11.0 | 3 | *2.2* | *-6* |
| **XKX** | 0 | 0.0 | 2 | *1.5* | *2* |
| **Ümumi** | **82** | **100** | **138** | **100** | **56** |

2024-cü il ərzində Xidmət tərəfindən hüquq mühafizə orqanlarına təqdim edilmiş məlumatlar əsasında 15 cinayət işi açılmış, bunlardan 8 iş Cinayət Məcəlləsinin (CM) 193-1-ci maddəsi, 1 iş CM-in 214-1-ci maddəsi, 6 iş isə CM-in digər maddələri ilə bağlı olmuşdur.




Hesabat dövrü ərzində Xidmət tərəfindən bank olmayan maliyyə institutları, qeyri-maliyyə institutları və peşə sahibləri üçün şübhəli əməliyyatların araşdırılmasına dair meyarlar hazırlanmış və istifadə edilməsi üçün aidiyyəti üzrə təqdim edilmişdir.

Xidmət tərəfindən aparılan strateji təhlillər zamanı 2023-cü il ərzində 2,7 milyon nəfərə yaxın şəxsin bank hesablarına ödəniş terminalları vasitəsilə daxil olmuş vəsaitin əsasən kiçik məbləğlərlə çoxlu sayda əməliyyatlar çərçivəsində aparılması müəyyən edilmişdir ki, bu da əsas mənbənin və təyinatın yayındırılmasına cəhd edildiyini ehtimal etməyə əsas vermişdir. Qeyd olunanların maliyyə sektorunda çinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi baxımından kifayət qədər təhdidlər yaratdığını nəzərə alaraq, xüsusilə riskli hesab olunan və dövriyyəsi 295,9 milyon manat təşkil edən 1828 fiziki şəxs barədə məlumat vergidən yayınma hallarının mövcudluğunun araşdırılması məqsədilə Dövlət Vergi Xidmətinə göndərilmişdir.

Məbləğ limitinə əsasən göndərilən, məbləğ limitindən asılı olmayaraq göndərilən, eləcə də yüksək riskli zonalarla əlaqəli həyata keçirilən əməliyyatların təhlili üzrə metodologiyalar hazırlanaraq "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinə daxil olan şübhəli məlumat və sorğulara baxilmasına dair daxili prosedur Qaydalara" əlavə edilmişdir.

2024-cü il ərzində ölkə maliyyə institutlarının onlayn ekvayrinq xidməti göstərdiyi qurumlar tərəfindən veb səhifə və mobil applikasiyalar vasitəsilə qəbul edilən vəsaitlərə dair araşdırma aparılmış, sahə üzrə müəyyən edilmiş zəifliklər barədə Azərbaycan Respublikasının Mərkəzi Bankına məlumat təqdim edilmişdir.

2023-cü ilin sonuna bank hesabı olmayan və fəaliyyəti dayandırılmayan hüquqi şəxslərin, onların təsisçi və direktorlarının bank əməliyyatlarına dair təhlillər aparılmış, nəticədə 34 fiziki şəxslə əlaqəli 10,9 milyon manat məbləğində əməliyyatlarla bağlı Dövlət Vergi Xidmətinə məlumat təqdim edilmişdir.

Öhdəlik daşıyan şəxslər tərəfindən təqdim olunan şübhəli məlumatların təhlili nəticəsində hüquqi şəxslərin bank hesablarına daxil olan vəsaitlərin sonradan Hökumət Ödəniş Portalı (HÖP) vasitəsilə hüquqi şəxslər ilə biznes əlaqəsi olmayan 3-cü şəxslərin büdcə ödənişlərində istifadə edilməsi, bununla da vəsaitlərin mənimsənilməsi, cinayət yolu ilə əldə edilmiş əmlakın nağdlaşdırma yolu ilə leqallaşdırılması sxeminə dair tipologiya hazırlanaraq Xidmətin veb səhifəsində yerləşdirilmiş, hüquq mühafizə, nəzarət orqanlarına və öhdəlik daşıyan şəxslərə təqdim edilmişdir.

Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) metodologiyası və beynəlxalq təcrübəyə əsaslanaraq, kiberdələduzluq hallarından yaranan maliyyə axınlarının izlənməsi və təhlilinə dair metodologiya hazırlanaraq Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Dövlət Təhlükəsizlik Xidmətinə və Daxili İşlər Nazirliyinə təqdim edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsindən alınan məlumatlar əsasında 2022-2024-cü illər ərzində yüksək riskli zonalar ilə ticarət əlaqələri olan sahibkarlıq subyektlərinin fəaliyyətinə dair aparılmış araşdırma nəticəsində mal idxal-ixracı etmiş, lakin bunun qarşılığında hər hansı vəsait köçürməyən və ya qəbul etməyən sahibkarlıq subyektləri müəyyən edilərək müvafiq tədbirlərin görülməsi məqsədilə Dövlət Vergi Xidmətinə təqdim edilmişdir.

Hesabat dövründə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinin ölçülməsi baxımından Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların əməkdaşlıq etdikləri müxbir (korrespondent) banklar vasitəsilə 2020-2023-cü illər ərzində xarici ölkələrlə aparılan əməliyyatlar üzrə təhlillər aparılmışdır.

“Chainanalysis” şirkəti və maliyyə institutlarından əldə edilmiş məlumatlar əsasında 2023-cü il ərzində virtual aktivlərlə aparılmış əməliyyatlar təhlil edilmiş, sahə üzrə mövcüd vəziyyət, tendensiyalar və əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi baxımından yarana biləcək təhdidlər müəyyən edilərək müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Mərkəzi Bankına göndərilmişdir.

Hesabat dövründə maliyyə institutlarından hüquqi şəxslərin korporativ kartları vasitəsilə 2022-2023-cü illər ərzində həyata keçirilən əməliyyatlara dair məlumatlar əldə edilərək təhlil edilmişdır.

Maliyyə institutları tərəfindən imza səlahiyyətli şəxslərə və hüquqi şəxslərin benefisiar mülkiyyətçilərinə dair məlumatların avtomatlaşdırılmış formada əldə edilməsinə başlanılmışdır.

Məbləğ limitinə əsasən təqdim olunan məlumatların təhlili nəticəsində yüksək məbləğ və sayda konvertasiya əməliyyatı aparılmış şəxslər müəyyən edilərək aidiyyəti üzrə tədbirlərin görülməsi üçün Dövlət Gömrük Komitəsinə təqdim edilmişdir.

Xidmətin xarici MMO-larla məlumat mübadiləsi üzrə hesabatlıq sistemi yaradılmış, hüquqi şəxslərin reyestr məlumatlarına dair xarici sorğuların cavablarının tamlığının qiymətləndirilməsi və uçotunun aparılması təmin edilmişdir. 2024-cü il ərzində xarici MMO-lardan 31 halda hüquqi şəxslərin reyestr məlumatları sorğulanmış, 26 halda müvafiq məlumat təqdim edilmişdir.

Xidmətin strateji təhlil məhsullarının inkişaf etdirilməsi, səlahiyyətli qurumların ehtiyaclarının müəyyən edilməsi məqsədilə təqdim edilmiş strateji məhsulların keyfiyyətinə dair geriyəməlumatın əldə edilməsinə başlanılmışdır.

## Qanunvericiliyin təkmilləşdirilməsi

Hesabat dövründə Xidmət tərəfindən “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”, Koordinasiya Şurasının Qısamüddətli iş planından və MONEYVAL 5-ci raund qiymətləndirilməsi nəticəsində aşkar edilmiş çatışmazlıqdan irəli gələn qanunvericilik aktlarının layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Belə ki, benefisiar mülkiyyətçi institutunun Azərbaycanda tətbiqi, MONEYVAL-ın 5-ci raund qiymətləndirməsi hesabatında aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəlləsi, Mülki Məcəlləsi, Vergi Məcəlləsi, Mülki Prosessual Məcəlləsi, İnzibati Xətalar Məcəlləsində, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında”, “Hədəfli maliyyə sanksiyaları haqqında”, “Cinayət işlərinə dair hüquqi yardım haqqında” və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” qanunlarda dəyişiklik edilməsi barədə hazırlanmış

Qanun layihələri dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla aidiyyəti üzrə təqdim edilmişdir.

Həmçinin, əməliyyatların icrasının dayandırılması mexanizminin tam tətbiqi ilə bağlı hazırlanmış qanun layihəsi dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla vizalanması üçün təqdim edilmişdir.

Yüksək riskli zonaların və onlara qarşı tətbiq edilməli məhdudiyyət və xüsusi tələblərin siyahısı Xidmətin İdarə Heyətinin Qərarı ilə təsdiq edilmiş və aidiyyəti üzrə göndərilmişdir.

Xidmət tərəfindən hazırlanmış Nazirlər Kabinetinin 2024-cü il 12 fevral tarixli 83 nömrəli Qərarı ilə təsdiq edilmiş “Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar”a dəyişiklik layihəsi və “Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin informasiya sisteminə inteqrasiya edilən informasiya sistemlərindən (ehtiyatlarından) əldə olunan məlumatların dairəsinin müəyyən edilməsi haqqında” Nazirlər Kabinetinin Qərarı layihəsi təsdiq edilmişdir.

Həmçinin hesabat dövründə "Hədəfli maliyyə sanksiyalarının tətbiqinə dair Təlimat"a dəyişiklik edilmişdir.

## Ölkədaxili əməkdaşlıq

2024-cü il ərzində işçi qruplar çərçivəsində 1-i rəhbərlik səviyyəsində olmaqla 6 geniştərkibli iclas, o cümlədən ayrı-ayrı qurumlarla fərdi şəkildə mütəmadi görüşlər keçirilmiş, ƏL/TMM sahəsində aktual məsələlər müzakirə edilmişdir. Bu görüşlərdə hüquq mühafizə orqanları əməkdaşları və hakimlər iştirak etmiş, qanunvericiliyə dəyişiklik layihələri, tipologiyalar, “Card-to-card” əməliyyatlarından cinayətkar məqsədlərlə istifadə imkanları, leqallaşdırma cinayətinin törədilməsində yeni trendlər müzakirə olunmuş, geriyə məlumatlandırma çərçivəsində təqdim edilən məlumatlar əsasında cinayət işinin başlanmaması səbəbləri təhlil edilmişdir.

“Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar”ın banklar tərəfindən tətbiqi təcrübəsinə dair metodiki sənədin hazırlanması məqsədilə ABA, Xidmət və Mərkəzi Bankın nümayəndələrindən ibarət işçi qrup yaradılmışdır.

2024-cü il ərzində işçi qruplar çərçivəsində A (3), Dövlət Vergi Xidməti (4), Auditorlar Palatası (1), Vəkillər Kollegiyası (1), Dövlət Gömrük Komitəsi (2), Dini Qurumlarla İş üzrə

Dövlət Komitəsi (3) ilə ümumilikdə keçirilən 14 iclasda öhdəlik daşıyan şəxslər tərəfindən öhdəliklərin yerinə yetirilməsi səviyyəsi, risk əsaslı nəzarət tədbirləri, MONEYVAL Komitəsi tərəfindən aşkar edilmiş nöqsanların aradan qaldırılması kimi aktual məsələlər müzakirə edilmişdir.

BMT-nin Təhlükəsizlik Şurasının İŞİD və ƏL-QAİDƏ Sanksiya Komitəsinin 2024-cü ildə yenilənmiş "Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində sanksiya tətbiq edilməli olan şəxslərin Ümumi Siyahısı" barədə nəzarət orqanları və monitorinq subyektlərinin məlumatlandırılması təmin edilmişdir.

Hesabat dövründə hüquq mühafizə və nəzarət orqanlarının, həmçinin öhdəlik daşıyan şəxslərin əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün hədəf auditoriyanın təlim ehtiyacları müəyyən edilmiş, daxil olan müraciətlər əsasında təlim planı hazırlanmış və tam icra edilmişdir. İl ərzində dövlət qurumları ilə birgə 30-dan çox mövzunu əhatə edən, hüquq-mühafizə orqanları, nəzarət orqanları, QHT-lər və digər öhdəlik daşıyan şəxslərdən ümumilikdə 1000-dən çox iştirakçının yer aldığı 14 təlim keçirilmişdir.

2024-cü il ərzində 3 dəfə yenilənmiş FATF bəyanatları barədə nəzarət orqanları məlumatlandırılmışdır. Bu addım beynəlxalq standartlara uyğunluğun təmin edilməsi və maliyyə sisteminin şəffaflığının artırılmasına xidmət edir.

## Beynəlxalq əməkdaşlıq və beynəlxalq tədbirlər

2024-cü ildə də beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi, ƏL/TMM sahəsində məlumat mübadiləsinin genişləndirilməsi üçün anlaşma memorandumlarının imzalanması, əməkdaşların peşə vərdişlərin beynəxalq təcrübə ilə zənginləşdirilməsi məqsədilə Xidmətin rəhbərliyi və əməkdaşlarının müxtəlif beynəlxalq tədbirlərdə iştirakı təmin edilmişdir.

Belə ki, Xidmətin əməkdaşları 2024-cü ilin fevral ayında Maltada maliyyə monitorinqi orqanlarının ixtisaslaşmış qurumu olan Eqmont Qrupunun işçi və regional qruplarının görüşlərində, aprel ayında Avstraliyada Eqmont Komitəsinin sessiyalararası görüşündə, iyun ayında Fransada Eqmont Qrupunun 30-cu plenar iclasında iştirak etmişlər. Eyni zamanda, Xidmətin əməkdaşı Eqmont Qrupunun 30-cu plenar iclasında panelist qismində "Vergi cinayətlərinə qarşı mübarizədə yeni nəsil MMO-ların rolu" mövzusunda çıxış etmişdir.

2024-cü il ərzində Xidmətin əməkdaşı Eqmont Qrupunun idarəetmə orqanı olan Komitənin üzvü və bu Komitənin Üzvlük, Dəstək və Uyğunluq qrupunun sədri qismində fəaliyyət göstərmişdir.

Konqo Demokratik Respublikası və Syerra-Leone Respublikasının maliyyə monitorinqi orqanının Eqmont Qrupuna üzvlük müraciətinin meyarlara uyğunluğunun müəyyən edilməsi üzrə hüquqi rəyçi qismində, Eqmont Qrupunun İllik Hesabat layihəsinin hazırlanmasında, 2024-cü ilin oktyabrın 24-25-də ECOFEL Proqramı çərçivəsində "Egmont Certification Program - Curriculum" İşçi qrupunun eksperti qismində iştirak edilmişdir. 2024-cü ilin oktyabrın 29-30-u tarixlərində ECOFEL proqramı tərəfindən Eqmont Qrupunun Qərbi və Mərkəzi Afrika regionuna daxil olan ölkələrin MMO-larının əməkdaşları üçün "MMO-nun şübhəli əməliyyatları dayandırması səlahiyyəti" mövzusunda təlim keçirilmişdir.

Xidmətin əməkdaşı 2024-cü il ərzində Eqmont Qrupunun "Təhlükəsiz informasiya sistemi"ndə ("Egmont Secure Web - ESW") regional dəstək mütəxəssisi kimi fəaliyyət göstərmişdir.

2024-cü il ərzində Xidmətin əməkdaşları FATF-ın Beynəlxalq Əməkdaşlığın Monitorinqi Qrupunun (ICRG) Avrasiya/Avropa/Orta Şərq və Şimali Afrika İşçi qrupu çərçivəsində Əlcazair, Monako, Livan, Bolqarıstan, Türkiyənin qiymətləndirilməsi üzrə İşçi qrupun aparıcı rəyçisi qismində iştirak etmişlər, həmçinin Bolqarıstanın tərəqqi hesabatı üçün 14, 18 və 22-ci Tövsiyələr üzrə rəyçi olmuşlar, il ərzində Cersi, Bosniya və Herseqovina, Gernsinin 5-ci raund üzrə qarşılıqlı qiymətləndirmə hesabatlarının layihələrinə və MONEYVAL-ın Plenar İclaslarında qiymətləndirmə üzrə işçi qrupun iclası çərçivəsində reytinqlərə dair rəy və təkliflər bildirmişlər.

Xidmət tərəfindən FATF-ın aktivlərin bərpasına dair təlimatının ("FATF Asset Recovery Guidance") hazırlanması üzrə İşçi Qrup çərçivəsində 2024-cü ilin sentyabrın 20-də Avstriyanın Vyana şəhərində ekspertlərin görüşündə iştirak edilmişdir.

Avropa Şurasının MONEYVAL Komitəsi ilə əməkdaşlıq çərçivəsində 2024-cü ilin may ayında 67-ci və dekabr ayında 68-ci plenar iclasda Azərbaycan təmsil edilmişdir.

Xidmətin əməkdaşı 2024-cü ilin iyul ayından etibarən Strasburqda yerləşən MONEYVAL Komitəsinə layihə meneceri vəzifəsi üzrə bir il müddətinə ezam olunmuşdur.

"Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair" Avropa Şurası Konvensiyasının (CETS 198) Tərəflər Konfransında büro üzvü və əlavə Protokol sənədinin hazırlanması komitəsində ekspert qismində fəaliyyət göstərilmişdir.

Digər regional təşkilat olan Avrasiya Qrupu (EAG) çərçivəsində də əməkdaşlıq həyata keçirilmiş, 2024-cü ilin may ayında 40-cı və noyabr-dekabr aylarında 41-ci plenar iclaslarda iştirak edilmişdir.

Türk xalqları arasında qardaşlıq və dostluq münasibətlərinin, eləcə də tarixi və mədəni əlaqələrin inkişaf etdirilməsi, habelə türk dövlətlərinin cinayət yolu ilə əldə edilən əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizədə əməkdaşlığının daha da genişləndirilməsi məqsədi ilə 2024-cü il 9 oktyabr tarixində Şuşa şəhərində Xidmətin təşəbbüsü və təşkilatçılığı ilə **ilk dəfə olaraq** Türk Dövlətləri Təşkilatına üzv ölkələrin maliyyə monitorinqi orqanlarının təmsil olunduğu “Maliyyə kəşfiyyatı üçün yüksək texnologiyaların tətbiqi və məlumat mübadiləsi” mövzusunda **beynəlxalq forum** keçirilmişdir. Tədbir çərçivəsində panel müzakirələr keçirilmiş, maliyyə monitorinqi orqanlarının qarşılıqlı fəaliyyəti və qabaqcıl təcrübələrin tətbiqi haqqında fikir mübadiləsi aparılmışdır. Forumda türk dövlətləri başçılarının ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi istiqamətində təşəbbüslərinin önəmi vurğulanmış, ölkələrimiz arasında dərin tarixi, mədəni və sosial əlaqələrin movcudluğu qeyd olunmuş, münasibətlərin maliyyə cinayətləri ilə mübarizə sahəsində də gücləndirilməsinin əhəmiyyətindən bəhs edilmişdir.

"Davamlı əməkdaşlığın gələcəyi" mövzusunda müzakirələrin nəticəsi olaraq, türk dövlətlərinin maliyyə monitorinqi orqanları tərəfindən ölkələrimiz arasında maliyyə cinayətlərinə qarşı mübarizə sahəsində əməkdaşlığı inkişaf etdirmək məqsədilə "Şuşa Təşəbbüsü" sənədi yekdilliklə qəbul olunmuşdur. Təşəbbüs çərçivəsində əməkdaşlığın həyata keçirilməsi məqsədilə üzv dövlətlərin maliyyə monitorinqi orqanlarının nümayəndələrindən ibarət İşçi Qrup yaradılmış və “2025-ci il üzrə Yol Xəritəsi” hazırlanmışdır.

2024-cü ilin 16 noyabr tarixində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində bu **konfranslar tarixində ilk dəfə** maliyyə monitorinqi orqanlarının, yəni Xidmətin, Eqmont Qrupunun, İnterpol və BMT-nin Narkotik və Cinayətkarlıqla Mübarizə İdarəsinin təşkilatçılığı ilə "Maliyyə kəşfiyyatının antropogen iqlim dəyişmələri ilə mübarizədə qlobal səylərə töhfə verməsi üçün imkanlar" və “Ətraf mühit cinayətləri ilə mübarizədə maliyyə monitorinqi orqanlarının və onların hüquq-mühafizə sahəsində tərəfdaşlarının rolu” mövzusunda panel müzakirələr təşkil edilmişdir.

Panel müzakirələrin birinci sessiyasında ekoloji cinayətlərdən əldə edilən əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və bu cinayətlərə qarşı mübarizədə milli və beynəlxalq səylərin dəstəklənməsi məqsədilə maliyyə, investisiya və ticarət sahələri üzrə əməkdaşlıq, ətraf mühit cinayətləri və onların təsirləri, qlobal maliyyə kəşfiyyatı və mübarizə strategiyaları kimi aktual mövzular müzakirə olunmuşdur.

Ümumilikdə, Xidmətin əməkdaşları FATF, Eqmont Qrupu, MONEYVAL kimi beynəlxalq təşkilatların 23 sayda iclaslarında, eləcə də müxtəlif aidiyyəti konfraslar və sammitlərdə fəal iştirak etmişlər.

2024-cü il ərzində beynəlxalq əməkdaşlığın genişləndirilməsi məqsədilə Türkmənistan, Qazaxıstan, Macarıstan, Özbəkistan,Qırğız və Çin Xalq Respublikalarının maliyyə monitorinqi orqanları ilə 6 yeni Anlaşma Memorandumu imzalanmış, bununla da anlaşma memorandumlarının sayı 17-yə çatmışdır.

| | | | |
|---|---|---|---|
| | **Türkmənistan Respublikası** | Türkmənistanin Maliyyə və İqtisadiyyat Nazirliyi Yanında Maliyyə Monitorinqi Xidməti İlə Azərbaycan Respublikasinin Maliyyə Monitorinqi Xidməti arasinda pul vəsaitlərinin və ya digər əmlakin leqallaşdirilmasi, terrorçuluğun və kütləvi qirğin silahlarinin yayilmasinin maliyyələşdirilməsinə qarşi mübarizə sahəsində maliyyə məlumatlarinin mübadiləsi üzrə əməkdaşliğa dair Anlaşma Memorandumu | 1/31/2024 |
| | **Qazaxıstan Respublikası** | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ilə Qazaxıstanın Maliyyə Monitorinqi Agentliyi pul vəsaitlərinin və ya digər əmlakin leqallaşdirilməsi, terrorçuluğun və kütləvi qirğin silahlarinin yayilmasinin maliyyələşdirilməsinə qarşi mübarizə sahəsində maliyyə məlumatlarinin mübadiləsi üzrə əməkdaşliğa dair Anlaşma Memorandumu | 1/31/2024 |
| | **Çin Xalq Respublikası** | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ilə Çin Xalq Respublikasının Çirkli Pulların Yuyulmasına qarşı Monitorinq və Təhlil Mərkəzi arasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə aid maliyyə məlumatlarının mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu | 5/30/2024 |
| | **Macarıstan Respublikası** | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ilə Macaristan Maliyyə Monitorinqi Orqanı, Macaristan Milli Vergi və Gömrük İdarəsi arasında pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, əlaqəli predikativ cinayətlər və terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində maliyyə məlumatlarının mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu | 10/9/2024 |
| | **Özbəkistan Respublikası** | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ilə Özbəkistan Respublikası Baş Prokurorluğunun İqtisadi Cinayətlərlə Mübarizə İdarəsi arasında əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində maliyyə məlumatlarının mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu | 10/9/2024 |
| | **Qırğız Respublikası** | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ilə Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Maliyyə Kəşfiyyatı Xidməti arasında əmlakın leqallaşdırılması, əlaqəli predikativ cinayətlər və terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində maliyyə məlumatlarının mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu | 10/9/2024 |

## İnstitusional quruculuq və təşkilati məsələlər

Xidmətin əməkdaşları peşəkarlıq səviyyələrinin artırılması məqsədilə 2024-cü il ərzində 42 yerli və beynəlxalq təlimə cəlb edilmişdir. Təlimlər Xidmətin ehtiyaclarını və günün tələblərini nəzərə alaraq əsas etibarılə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması ilə mübarizə sahəsində risk qiymətləndirilməsinin aparılması, maliyyə sanksiyaların tətbiqini, ƏL/TMM sahəsində beynəlxalq təcrübənin öyrənilməsini, yeni texnologiyaların tətbiqi və İT bacarıqların inkişafına yönəlmişdir.

"Kağızsız hökumət"ə keçid prosesinə uyğunlaşma məqsədilə digər dövlət qurumlarının elektron sənəd dövriyyəsi sistemlərinə inteqrasiyası icra olunmuşdur.

Hesabat dövrü ərzində Xidmətə dövlət və özəl qurumlarından, o cümlədən beynəlxalq təşkilatlardan və vətəndaşlardan 1970 məktub daxil olmuşdur ki, bu da 2023-cü ilin müvafiq göstəricisindən (1715) 255 ədəd və yaxud 14,9 faiz çoxdur. Məktublardan 1019-i məlumat xarakteri daşımış, digərləri qanunvericilikdə nəzərdə tutulmuş müddətdə cavablandırılmışdır.

2024-cü ildə Xidmətdən 1229 məktub göndərilmişdir ki, bu da 2023-ci ilin müvafiq göstəricisindən (888) 341 ədəd və yaxud 38,4 faiz çoxdur.

Müraciətlərin illər üzrə müqayisəli cədvəllər aşağıda təqdim edilir.




Xidmətin informasiya və ictimaiyyətlə əlaqələr üzrə siyasəti Azərbaycan Respublikasını Konstitusiyasında əks olunmuş məlumat azadlığını və vətəndaşların informasiya əldə etmək hüququnu ardıcıl və tam təmin etməyə yönəldilmişdir. Bu siyasətin həyata keçirilməsi çərçivəsində hesabat ili ərzində Xidmətin ictimai əlaqələri genişləndirilmiş, media subyektləri ilə əməkdaşlıq qurulmuş və ictimaiyyətə rəsmi veb səhifə və sosial media hesabları vasitəsilə

mütəmadi olaraq müvafiq məlumatlar təqdim edilmişdir. İl ərzində yerli və beynəlxalq medianın, o cümlədən ictimai-siyasi aktiv şəxslərin sosial şəbəkə hesablarının monitorinqi aparılmış, eləcə də Xidmətin ictimai əlaqələri genişləndirilmişdir..

Bundan əlavə Xidmətin daxili və xarici kommunikasiya işinin daha da effektiv həyata keçirilməsi məqsədilə Kommunikasiya Qaydaları hazırlanmış və təsdiq edilmişdir.

Hesabat ili ərzində Xidmətə telefon, e-poçt və sosial şəbəkə hesablarının yazışma paneli vasitəsilə daxil olmuş şifahi və yazılı müraciətlər müvafiq qaydada cavablandırılmışdır. Hesabat dövründə rəsmi veb-səhifədə 52 press-reliz dərc edilmiş, yeni metodologiyalar, tipologiyalar və müvafiq materiallar yerləşdirilmişdir. Xidmətin fəaliyyətilə bağlı yenilənmiş sənədlər, hazırlanmış materiallar veb-səhifədə də öz əksini tapmışdır. Eyni zamanda, Xidmətin rəsmi veb-səhifəsinin müasir texnologiyalar əsasında yenilənməsi və funksionallığının artırılması üzrə işlər tamamlanmışdır. Öhdəlik daşıyan şəxslər tərəfindən ƏL/TMM tədbirlərinin həyata keçirilməsi zamanı yaranan praktiki problemlərin həlli məqsədilə öhdəlik daşıyan şəxslərdən əldə edilmiş sorğu cavabları əsasında Xidmətin rəsmi saytında tez-tez verilən suallar hissəsinə mütəmadi olaraq əlavə və dəyişikliklər edilmişdir.

Hədəfli maliyyə sanksiyaları səhifəsinin (www.hms.gov.az) yenilənməsi ilə bağlı təkliflər hazırlanmış və aidiyyəti qurumlarla razılaşdırılmışdır. Xidmətin digər rəsmi internet resursları, o cümlədən Facebook, LinkedIn, Wikipedia və YouTube səhifələri də idarə edilmiş, X platformasında rəsmi hesab açılmışdır.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə sahəsində hüquqi və praktiki bilikləri artırmaq məqsədilə ingiliscə-azərbaycanca terminologiya lüğəti hazırlanmışdır. Lüğət, müvafiq sahədə fəaliyyət göstərən mütəxəssislərin, hüquq-mühafizə orqanlarının əməkdaşlarının və geniş ictimaiyyətin istifadəsi üçün nəzərdə tutulmuşdur. Bu lüğət, mövzu ilə bağlı ən çox istifadə edilən ifadələrin dəqiq və aydın izahını təqdim etməklə, məlumatlılığın artırılmasına mühüm töhfə verir.

Xidmətin elektron tədris platforması üzrə də müsbət nəticələr əldə edilmişdir. 2024-cü il ərzində 170 nəfərin qeydiyyatı təsdiqlənmiş, modullar üzrə 66 sertifikat təqdim edilmişdir.

“Dövlətə məxsus hüquqi şəxslərdə apellyasiya şuralarının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 6 may tarixli 681 nömrəli Fərmanına uyğun olaraq Xidmətdə fəaliyyət göstərən Apellyasiya Şurasına 2024-cü il ərzində şikayət daxil olmamışdır.